UOT 94; UOT 930

BALAMİRZƏ MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin doktorantı
balamirzamammadli@gmail.com

VƏTƏN TARİXŞÜNASLIĞINDA AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ (1993-1997-Cİ İLLƏR): ANLAŞILMAZ MÜNASİBƏTLƏRDƏN – STRATEJİ TƏRƏFDAŞLIĞA DOĞRU

DOI: https://doi.org/10.36719/2708-065X/103/193-202

XX əsrin sonlarında öz müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın dünyanın yeganə fövqəldövləti və nəhəng güc mərkəzi ABŞ ilə münasibətləri ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə böyük qayıdışından sonra yeni və son dərəcə mühüm bir mərhələyə qədəm qoymuşdur. Bu mühüm tarixi hadisədən sonra nəinki ABŞ ilə münasibətlərdə, bütövlükdə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində böyük dönüş baş vermişdir. Əgər Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi 1993-cü ildə Azərbaycan-ABŞ münasibətləri daha çox anlaşılmaz xarakter kəsb edirdisə, həmin ildən sonra ikitərəfli əlaqələr tədricən müsbət tendensiyada inkişaf etdirilməyə başlanılmış və cəmi 4 il ərzində iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir. Vətən tarixşünaslığında Azərbaycan-ABŞ münasibətlərinin bəhs olunan periodu (1993-1997-ci illər) müxtəlif tədqiqatçıların əsərlərində son dərəcə geniş şəkildə öz əksini tapmışdır. Məqalədə Vətən tarixşünaslığındakı sözügedən problem üzrə tədqiqat əsərlərinin müqayisəli təhlili əsasında Azərbaycan-ABŞ münasibətlərinin dörd ili tədqiq edilir.

Açar sözlər: Azərbaycan Respublikası, ABŞ, Heydər Əliyev, xarici siyasət, Vətən tarixşünaslığı.

Giriş. Böyük dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin yayında siyasi hakimiyyətə qayıdışı müasir Azərbaycan tarixinin elə bir mühüm məqamına təsadüf edir ki, həmin vaxt Azərbaycanda ictimai-siyasi, iqtisadi və mənəvi-psixoloji böhran yaranmış, ölkəmiz öz müstəqil dövlətçiliyini itirmə təhlükəsi ilə üz-üzə qalmış, Azərbaycanın həm şimalında, həm də cənubunda ölkəni vətəndaş müharibəsinə sürükləyən güclü separatçılıq meylləri baş qaldırmışdı. Y.Hüseynov bununla bağlı yazır: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı çətinliklər və səriştəsiz rəhbərlər üzündən Azərbaycan parçalanmağa və müstəqilliyini itirməyə doğru sürüklənirdi" [16, s.357]. Belə bir ağır vəziyyətdə iqtidarda olan hökumət mövcud problemləri həll edə bilməyərək istefa vermişdi. Bununla da, Azərbaycan xalqının bütün bu təhlükələrdən qurtulmanın yeganə çıxış yolu kimi bir ümidi qalmışdı: vaxtilə 1969-1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edərək onu nəinki bütün Sovet İttifaqında, eləcə də dünyada layiqincə təmsil etmiş dahi lider H.Əliyevi yenidən hakimiyyətə dəvət etmək. Təsadüfi deyildir ki, ABŞ politoloqu Z.Bjezinski həmin vaxt demişdi: "Hazırda Azərbaycanı idarə edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir!" [17, s.6]. Beləliklə, Azərbaycan xalqının təkidli tələbi ilə və konstitusiyaya uyğun olaraq H.Əliyev hakimiyyətə gəldi.

Heydər Əliyevin siyasi hakimiyyətə böyük qayıdışından sonra Azərbaycan-ABŞ münasibətlərinin xarakteri Vətən tarixşünaslığında. Vətən tarixşünaslığında əksər tədqiqatçılar qeyd edirlər ki, H.Əliyevin hakimiyyətə qayıdışı zamanı Azərbaycan-ABŞ münasibətləri daha çox anlaşılmaz xarakter kəsb edirdi [12]. Belə ki, yeni hakimiyyətə əvvəlkindən iki ölkə arasında münasibətlərdə bir sıra "mirasların" qaldığını göstərən M.Qasımlı bu barədə yazır: "Bu zaman iki ölkə arasında münasibətlərdə anlaşılmazlıq hökm sürürdü. ABŞ-da Azərbaycan haqqında belə bir mənfi fikir formalaşmışdı ki, guya Azərbaycanda ermənilər öldürülür, insan hüquqları pozulur" [19, s.165]. Ə.Həsənov isə göstərir ki, sözügedən dönəmdə bir tərəfdən Prezident Ə.Elçibəy hökumətinin yürütdüyü xarici siyasət, digər tərəfdən Ermənistanın və ABŞ-dakı erməni lobbisinin anti-Azərbaycan təbliğatı nəticəsində Birləşmiş Ştatlar Azərbaycandan çox uzaq bir qütbə salınmış və bu da ona gətirib çıxarmışdır ki, rəsmi Vaşinqton Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ilin sonuna kimi bir neçə dəfə məhz Ermənistanın mövqeyini əks etdirərək münaqişədə onu haqlı hesab edən

bəyanatlar yaymış, əksinə haqq işi uğrunda mübarizə aparan Azərbaycana qarşı isə, qeyri-obyektiv mövqe tutmuşdur [13, s.151]. Ə.Həsənov daha sonra yazır: "ermənilər bu dövrdə istədiklərinə qismən nail olsalar da, Azərbaycanda 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklər və Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması onların çirkin əməllərinin qarşısına sipər çəkdi" [13, s.151].

H.Əliyevin siyasi hakimiyyətə qayıdışının elə ilk vaxtlarından Azərbaycanın ABŞ ilə münasibətlərindəki anlaşılmazlıqların aradan qaldırılması, ikitərəfli əlaqələrin yenidən yüksək səviyyədə qurulması istiqamətində səylər göstərilməyə başlandı. Çünki, həmin vaxt Azərbaycanın daxilində siyasi cəhətdən qeyri-sabitlik, hərc-mərclik, şiddətlənməkdə olan erməni təcavüzü ilə müşahidə olunan elə bir mürəkkəb şərait hökm sürürdü ki, M.Qasımlının təbirincə desək, artıq ABŞ-ın Azərbaycan siyasətinin prioritet mövzusunu biləvasitə Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünün qorunması təşkil etməyə başlamışdı [19, s.165]. Azərbaycan daxilindəki məhz belə bir şəraitdən istifadə edən Ermənistan Respublikası isə, öz hərbi təcavüzünün miqyasını getdikcə artıraraq yeni ərazilərin işğalına davam etməkdə idi. Elə buna görədir ki, 1993-cü ilin iyunun 24-dən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri H.Əliyev ABŞ ilə münasibətlərin yüksəldilməsi istiqamətində dərhal ciddi cəhdlərə başladı. Ə.Həsənovun yazdığı kimi: "1993-cü ilin iyununda H.Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtmasından sonra respublikamızın xarici siyasəti, o cümlədən ABŞ ilə münasibətləri yeni mərhələyə qədəm qoyaraq daha məqsədyönlü xarakter aldı, daha ardıcıl surətdə həyata keçirilməyə başladı" [13, s.151]. Artıq 1993-cü ilin 30 iyununda səfir H.Paşayev Birləşmiş Ştatların diqqətini Azərbaycandakı vəziyyətə, xüsusilə erməni təcavüzü məsələsinə yönəltmək məqsədilə ABŞ-ın vitse-prezidenti A.Qor və dövlət katibi U.Kristoferə məktubla müraciət edərək, ABŞ-ı Ermənistanın təcavüzünün dayandırılması üçün təşəbbüs göstərməyə, məcburi köçkün və qaçqın vəziyyətinə düşmüş vətəndaşların getdikcə çoxalması ilə əlaqədar yaranmış şəraitdə humanitar yardım etməyə çağırdı [30, s.57-59]. Sözügedən dönəmdə ABŞ-dakı erməni dairələri yenidən baş qaldıraraq hər vəchlə Azərbaycanı ABŞ-ın hər cür yardımından məhrum etmək niyyətlərini həyata keçirməyə çalışırdılar. Lakin, artıq bir çox amerikalı neytral və obyektiv siyasətçilər təcavüzə məruz qalan bir ölkəyə – Azərbaycana yardım edilməsini dayandırmaq haqqında ermənilərin tələblərinin sağlam məntiqə zidd olduğunu başa düşür, Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi ilə balansın pozulduğunu və ABŞ-ın maraqlarına cavab verilmədiyini anlayırdılar. Məhz buna görədir ki, S.Talbott 1993-cü ilin 9 sentyabrında Senatdakı çıxışında birmənalı şəkildə bildirdi: "Azərbaycana yardım proqramının məhdudlaşdırılması xarici siyasət məqsədlərimizə çatmağa mane olur". Beləliklə, M.Qasımlının yazdığı kimi, ABŞ-ın Azərbaycan siyasətinin dəyişdirilməsinin vacibliyi əsaslandırıldı [19, s.167].

1993-cü ilin sentyabrında H.Əliyev ABŞ Prezidenti B.Klinton, vitse-prezident A.Qor və konqresin spikeri T.Foliyə məktub göndərərək "Azadlığı müdafiə akı"nın 907-ci maddəsinin qeyri-obyektivliyini əsaslandırdı və ABŞ-ı Azərbaycan əleyhinə yönəlmiş bu ayrı-seçkilik xarakterli bəndin ləğv edilməsi üzrə tədbirlərin görülməsinə çağırdı. Ə.Həsənov yazır ki, Vaşinqton bu məktuba dərhal reaksiya verərək öz nümayəndəsini Azərbaycana göndərdi [13, s.152]. Belə ki, ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri S.Talbott Bakıya gələrək ABŞ Prezidenti B.Klintonun cavab məktubunu H.Əliyevə təqdim etdi. Məktubda Prezident B.Klinton Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etməsindən keçirdiyi narahatçılığı bildirərək Azərbaycana edilən son hücumları və bunun da nəticəsində Azərbaycanın bir sıra ərazilərinin işğal edilməsini qəti surətdə pislədiyini qeyd edir, münaqişənin aradan qaldırılması üçün Dağlıq Qarabağ ermənilərinə və Ermənistan hökumətinə ciddi təzyiqlər göstərilməsi haqqında məlumat verirdi. Lakin, məktubun mətnində Azərbaycana edilən təcavüzkar hücumlardan bəhs edilərkən ABŞ Prezidenti tərəfindən "Dağlıq Qarabağın erməni silahlı qüvvələri" ifadəsinin işlədilməsi bir qədər diqqəti cəlb edir. Çünki, M.Qasımlının da qeyd etdiyi kimi, Azərbaycan ərazilərini işğal edən Dağlıq Qarabağ regionunun deyil, Ermənistan Respublikasının silahlı qüvvələri idi [19, s.167-168]. Məktubda həmçinin, İ.Musanın da yazdığı kimi: "ABŞ Prezidentinin S.Talbott tərəfindən rəsmi Bakıya çatdırılan cavab məktubunda məlum düzəliş qüvvədə saxlanılmaqla Azərbaycana QHT-lər vasitəsilə yetərli yardım ediləcəyi vəd olunurdu" [25, s.512-513]. Bu məsələ ilə bağlı Ə.Həsənov da öz monoqrafiyasında qeyd edir: "Məktubda ABŞ-ın Azərbaycana bundan sonra 907-ci düzəliş qüvvədə qalmaqla, QHT-lər xətti ilə ciddi kömək

göstərəcəyinə söz verilirdi" [13, s.153]. Beləcə, M.Qasımlının göstərdiyi kimi, Azərbaycan Respublikasının xarici siyasətində ABŞ ilə münasibətlər əsas vəzifələrdən biri səviyyəsinə qaldırıldı [19, s.168].

Heydər Əliyevin AR Prezidenti seçilməsindən sonra Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. 1993-cü ilin 3 oktyabrında xalqın böyük əksəriyyətinin etimadını qazanan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi və bundan 1 həftə sonra – oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqində ölkəmizin xarici siyasət konsepsiyasını açıqladı: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz hər bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin, eyni zamanda nəyin bahasına olursa olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq" [5, s.205-206]. 1993-cü ilin oktyabrında ABŞ-ın energetika naziri H.O'Lirinin müavini U.Uayt Azərbaycana səfər etdi və enerji sahəsində iki ölkə arasında iqtisadi sferada, xüsusilə neft sahəsində əməkdaşlığa dair konkret məsələlər, əməkdaşlığın yolları müzakirə edildi. Lakin, ABŞ ilə münasibətlərin yüksəldilməsi istiqamətində atılan bu addımlar fonunda Ermənistan öz təcavüzkar siyasətindən əl çəkməyərək Cəbrayıl və Qubadlıdan sonra Zəngilanın işğalına başlamışdı. Belə bir ağır dönəmdə, oktyabrın 22-də səfir H.Paşayev ABŞ konqresi nümayəndələr palatasının beynəlxalq əlaqələr komitəsinin sədri H.Hamiltona məktubla müraciət edərək Azərbaycandakı, daha dəqiq desək Qarabağ bölgəsindəki gərgin vəziyyəti ona izah edib ABŞ-ı məsələ ilə bağlı təsirli tədbirlər görməyə çağırdı [30, s.62-64]. Bu məktubdan sonra, ABŞ Dövlət Departamenti öz narahatlığını bildirərək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın cənub-qərbinə edilmiş hücumları pisləyən və sözügedən qüvvələrin işğal etdikləri əraziləri dərhal tərk etmələrini tələb edən bəyanat verdi, habelə qeyri-dövlət xətti ilə Azərbaycana humanitar yardım göstərilməsi çağırışı ilə dünya dövlətlərinə müraciət etdi [19, s.169]. Ə.Həsənov yazır ki, ABŞ Dövlət Departamentinin dərhal bəyanatla çıxış edərək işğal edilmiş bütün ərazilərdən hərbi qüvvələrin çıxarılmasını təkidlə tələb etməsi iki ölkə arasındakı yeni münasibətlərin ilkin müsbət əlamətlərinin nəticəsi hesab oluna bilər [13, s.153]. ABŞ Dövlət Departamentinin sözügedən bəyənatı son dərəcə obyektiv bir addım olsa da, təəssüf ki, 907-ci maddə hələ də qüvvədə qalırdı. Bu da onu göstərir ki, ikitərəfli münasibətlərdə hələ həll edilməsi lazım olan çoxsaylı problemlər mövcud idi. Elə bu səbəbdəndir ki, M.Qasımlı ümumilikdə 1993-cü ili Azərbaycan-ABŞ qarşılıqlı münasibətlərində "axtarışlar və ya yaxından tanınma ili" kimi xarakterizə edir [19, s.169].

1994-ci ildə tərəflərin maraqlarının dəqiqləşməsi və siyasətlərinin əsas elementlərinin aydınlaşması ilə Azərbaycan-ABŞ münasibətləri yeni mərhələyə qədəm qoydu. Həmin ilin aprelində R.Kozlariç ABŞ-ın Azərbaycandakı yeni fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Lakin, M.Qasımlı yazır ki, hələ martın əvvəllərində ABŞ senatında yeni səfirin təyinatı ilə bağlı dinləmələr keçirilən zaman erməni lobbisi bu təyinata əngəl yaratmağa çalışır, təzyiqlər göstərirdi [19, s.169]. Buradan belə qənaətə gəlmək olar ki, ABŞ-ın Azərbaycanda öz yeni səfirini təyin etməsi Azərbaycan-ABŞ münasibətlərində yüksəlişə doğru atılan addım idi və bu da, təbii ki, erməni lobbisinə sərf etmirdi. Belə olduqda, Azərbaycan tərəfi də ABŞ-dakı erməni lobbisi və diasporunun təzyiqlərini dayandırmaq üçün səylər göstərdi, səfir H.Paşayev 1994-cü il martın 14-də Delaver ştatından olan senator Co Baydenə (sonradan, 2020-ci il seçkilərində ABŞ Prezidenti seçilmişdir. – B.M.) məktub göndərərək Ermənistanın təcavüzü haqqında məlumat verdi və Konqresi ABŞ-ın xarici siyasətinin erməni lobbisi tərəfindən müəyyənləşdirilməsinə icazə verməməyə çağırdı [30, s.85]. 1994-cü ilin mayın 4-də Azərbaycanın ABŞ Prezidenti B.Klintonun xarici siyasət təşəbbüsü olan "sülh naminə tərəfdaşlıq" proqramına qoşulması, S.Mustafayevanın yazdığı kimi ölkəmizin rəsmi Vaşinqtonla hərbi-siyasi əməkdaşlığına təkan verən amil oldu [26, s.152]. 1994-ci ilin mayın 12-də nəhayət ki, Birinci Qarabağ müharibəsinə və Ermənistanın təcavüzünə son qoyan atəşkəsin haqqında sazişin imzalanması ABŞ tərəfindən olduqca müsbət qarşılandı və bundan təqribən 1 ay sonra, iyunun 10-da Türkiyəyə işgüzar səfəri zamanı Prezident H.Əliyevin ABŞ-ın dövlət katibi U.Kristofer ilə görüşü ikitərəfli münasibətlərin strateji və taktiki aspektlərini müzakirə və müəyyən etmək nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etdi. Ə.Həsənov həmin görüşün nəticəsi ilə bağlı yazır: "İkitərəfli münasibətlərlə bağlı hər iki tərəf qarşılıqlı faydalı əməkdaşlığa, regional və beynəlxalq münasibətlərdə sivil prinsiplərə, Dağlıq Qarabağ probleminin həlli üzrə beynəlxalq hüquq normalarına uyğun qərarlar qəbul etməyə və münasibətlər qurmağa hazır olduqlarını bəyan etdilər" [13, s.155].

1994-cü ilin sentyabrı iki ölkə arasında münasibətlərdə müsbətə doğru atılan növbəti addımlar ilə yadda qaldı. Belə ki, sentyabrın 3-4-də ABŞ-ın BMT-dəki daimi nümayəndəsi M.Olbrayt Bakıya səfər edərək Prezident H.Əliyev ilə görüşdü və Azərbaycan-ABŞ münasibətlərinə dair bir çox məsələlər müzakirə edildi. Burada ən çox diqqəti çəkən məqam H.Əliyevin təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin boşaldılmasında ABŞ-ın dəstəyini istəməsi oldu. M.Olbrayt QHT xətti ilə ABŞ tərəfindən Azərbaycana humanitar yardımlar göstərilməsininin gücləndiriləcəyini, habelə 907-ci maddənin ləğv edilməsi imkanlarının nəzərdən keçiriləcəyini bildirdi [13, s.156]. Sentyabrın 6-da Prezident H.Əliyevin ABŞ-ın vitse-prezidenti A.Qor ilə Qahirədəki görüşü zamanı, A.Qor Azərbaycan-ABŞ münasibətlərinin inkişafının zəruriliyini vurğulayaraq ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllinə hər cür yardım göstərəcəyini və ölkəsinin iri neft müqaviləsinin imzalanmasını dəstəklədiyini bəyan etdi. Bütün bu görüşlər ikitərəfli münasibətlərin inkişafı ilə yanaşı, həm də yeni neft strategiyasının həyata keçirilməsinə öz müsbət təsirini göstərdi və amerikalı tarixçi T.Svyatoxovskinin də qeyd etdiyi kimi, atəşkəsdən sonra Qarabağ probleminin həlli müvəqqəti olaraq arxa plana keçərək ağırlıq mərkəzi mühüm geosiyasi əhəmiyyət kəsb edən, Azərbaycanın əsas siyasi qayğılarından biri olan neftin üzərinə yönəldi [32, s.308].

"Əsrin müqaviləsi"ndən sonra Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. 1994-cü ilin sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə 12 dövlətin neft şirkəti arasında Xəzər dənizinin Azərbaycana məxsus sektorunda neft yataqlarının birgə hasilatı və işlənməsinə dair "Əsrin müqaviləsi" imzalandı [1, s.309]. Həmin şirkətlər arasında ABŞ-ın "Amoko", "Penzoyl", "Yunokal", "Ekson" kimi iri neft şirkətləri də var idi. M.Mirbabayev göstərir ki, "Əsrin müqaviləsi" 13 milyard ABŞ dolları həcmində qiymətləndirilir [24, s.257]. "Əsrin müqaviləsi"nin imzalandığı gün ABŞ Prezidenti B.Klinton Prezident H.Əliyevə təbrik məktubu göndərərək bu nəhəng müqaviləni Azərbaycanın qüdrətli iqtisadi gələcəyinə doğru atılmış həlledici addım adlandırdı [19, s.172]. M.Rzayev "Əsrin müqaviləsi"nin Azərbaycan-ABŞ münasibətlərinə təsiri ilə bağlı yazır: "Dünyanın ən qüdrətli dövləti olan ABŞ-la münasibətlərin nizama salınıb inkişaf etdirilməsində H.Əliyevin xidmətləri misilsizdir. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni həm də dönüş nöqtəsi oldu" [31, s.263]. N.Məmmədov "Xarici siyasətin Azərbaycan modeli" adlı kitabında "Əsrin müqaviləsi"nin ABŞ-Azərbaycan əlaqələrinin strateji xarakter almasında çox böyük rolunun olmasını qeyd edərək yazır: "Məhz bu müqavilədən sonra ABŞ-Azərbaycan əməkdaşlığının davamı olaraq yenidən Xəzər neftinin hasili və dünya bazarlarına nəqli ilə bağlı müxtəlif investisiya layihələri işlənib hazırlandı və müqavilələr bağlandı" [22, s.110]. E.Nəsirov bu fikri bir qədər də dəqiqləşdirir: "Əsrin müqaviləsi" sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı və ABŞ şirkətləri ("Amoko" – 17.01%, "Yunokal" – 10.0489 %, "Ekson" – 8.0006 %, "Penzoyl" – 4.8175% olmaqla) ümümilikdə 40%-lik paya sahib oldular [28, s.99].

1994-cü il sentyabrın 27-də Nyu-Yorkda ABŞ Prezidenti B.Klinton və Azərbaycan Prezidenti H.Əliyev arasında görüş baş tutdu. Həmin görüşün əhəmiyyətini Ə.Həsənov belə izah edir: "ABŞ Prezidenti Dağlıq Qarabağ problemi yaranan gündən bəri ilk dəfə olaraq bu məsələdə rəsmi Yerevanın deyil, Azərbaycanın mövqeyini müdafiə etdiyini bildirmiş və Azərbaycanın ABŞ üçün arzu edilən, əhəmiyyətli ölkə olduğunu bəyan etmişdir" [13, s.156]. H.Paşayev yazır ki, bu görüş ilə ABŞ və Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin ilk araşdırma mərhələsini başa çatdı [30, s.82]. ATƏM üzvü olan ölkə rəhbərlərinin 1994-cü ilin dekabrında keçirilən Budapeşt sammitində Prezident H.Əliyev ilə Prezident B.Klinton arasında növbəti görüş də ikitərəfli münasibətlərdə mühüm bir müsbət addım oldu ki, bunu M.Qasımlı Azərbaycan-ABŞ münasibətlərinin yeni keyfiyyət mərhələsinə hazırlıq kimi qiymətləndirir [19, s.173; 33]. Dekabrın 6-da Budapeşt sammitində çıxış edən Prezident H.Əliyev ATƏM-in Avropada oynadığı rola, onun təkmilləşdirilməsi zərurətinə böyük diqqət yetirərək qeyd etdi ki, müasir şəraitdə ATƏM-in rolu və əhəmiyyəti getdikcə artır [14, s.375]. Sammitdə ABŞ nümayəndələrinin yaxından iştirakı ilə qətnamə qəbul olundu. Həmin qətnaməyə görə, Avropanın müxtəlif bölgələrində baş verən münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi ayrı-ayrı dövlətlərin inhisarından çıxarılaraq birbaşa ATƏT-in ixtiyarına verilməli və münaqişə zonalarında, eləcə də Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində hər hansısa ölkənin deyil, ATƏT-in sülhməramlı qüvvələri yerləşdirilməli idi" [11, s.28-29]. Ə.Həsə-

nov bunu ATƏM-in bütün fəaliyyəti dövründə, o cümlədən Minsk qrupunun yaradıldığı 1992-ci ildən bəri ilk dəfə olaraq Azərbaycanı tamamilə təmin edən mühüm bir qətnamə kimi xarakterizə edir [13, s.157].

1995-1996-cı illərdə Ə.Həsənovun təbirincə desək, iki ölkə arasında siyasi və iqtisadi əlaqələr yüksələn xətlə inkişaf etdi. 1995-ci ilin aprelində ABŞ-ın energetika naziri H.O'lirinin ölkəmizə səfəri zamanı Azərbaycanın beynəlxalq neft konsorsiumundakı (latınca "consortium" – ortaqlıq, cəmiyyət) payının 5%-nin ABŞ-ın "Ekson" şirkətinə ayrılması haqqında sənəd imzalandı [6, s.385]. M.Qasımlı bu hadisəni Azərbaycan-ABŞ münasibətlərdə etimadı artırmağa və inamsızlığı aradan qaldırmağa kömək edən amil kimi qiymətləndirir [19, s.174]. 1995-ci ilin sonlarında Azərbaycan Prezidenti H.Əliyev ilə ABŞ-ın bir sıra görkəmli ictimai və siyasi xadimləri (konqresmen Q.Laflin, senator R.Şelbi, ABŞ-ın ATƏT-dəki nümayəndəsi S.Braun, görkəmli politoloq və dövlət Z.Bjezinski və d.) arasında çoxsaylı görüşlər keçirildi və bir sıra mühüm məsələlər, o cümlədən Bakı-Ceyhan əsas ixrac neft boru kəmərin ilə bağlı müzakirələr aparıldı. Z.Bjezinski özünün "İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı" adlı kitabında bununla bağlı yazır: "1995-ci ilin oktyabrında B.Klinton və onun milli təhlükəsizlik üzrə məsləhətçisi məndən Klintonun şəxsi məktubunu Azərbaycan Prezidenti Heydər Əliyevə çatdırmağımı və belə bir boru kəmərinin Azərbaycana gətirəcəyi uzunmüddətli faydalar haqqında danışmağımı xahiş etdilər. Bu barədə müsbət qərar vermək üçün Azərbaycan Rusiyanın bütün Azərbaycan neftinin sadəcə Rusiya ərazisindən ixrac olunması ilə bağlı xüsusi tələblərini rədd etməli idi. ...Azərbaycan Prezidenti H.Əliyev ilə mənim bir neçə dəfə görüşümüz oldu. ...Mən Klintona Azərbaycanın ABŞ-ın təşəbbüsü ilə bağlı öhdəlik götürdüyünü xəbər verə bildim. Bu gün Bakı-Ceyhan boru xətti Avropanın (və həm də Amerikanın) öz enerji mənbələrini çeşidləndirmək cəhdlərinə mühüm bir töhfədir" [3, s.143]. 1995-ci il oktyabrın 23-də Prezident H.Əliyevin dünyaca məşhur diplomat H.Kissincerlə görüşünü isə, F.İsmayılovun yazdığı kimi: "Azərbaycan-Amerika beynəlxalq dialoqunda maraqlı səhifə" hesab etmək olar. Həmin görüşdə H.Kissincer bildirdi: "ABŞ və Azərbaycan arasında əməkdaşlıq strateji xarakter daşıyır. Bu mənada ABŞ coğrafi nöqteyi-nəzərdən olduqca əhəmiyyətli olan bu regionda öz maraqlarını qorumalıdır" [18, s.78]. Ümumilikdə, 1995-ci ildə keçirilən görüşlər Vətən tarixşünaslığında Azərbaycan-ABŞ münasibətlərinin inkişafına və dərinləşməsinə mühüm təsir edən amil, iki ölkə arasında münasibətlərdə dönüşün ilk addımları hesab edilir [13, s.160; 19, s.176].

Lakin, sözügedən dönəmdə iki ölkə arasındakı münasibətlərə öz mənfi təsirini göstərən 907-ci maddənin ləğv edilməsi məsələsi öz aktuallığını saxlayırdı. Bununla belə, 1995-ci ilin mayında Azərbaycana birbaşa humanitar yardımların göstərilməsini nəzərdə tutan "Xelms layihəsi" adlı sənəd hazırlanmış, lakin Ş.Məmmədovun yazdığı kimi, ABŞ Konqresində məhz erməni lobbisinin ciddi müqaviməti ilə rastlaşaraq təxirə salınmışdı [23, s.60]. Məsələ burasındadır ki, 907-ci maddənin qüvvədə qalması ucbatından Azərbaycan Cənubi Qafqaz respublikaları arasında ABŞ-dan ən az yardım alan ölkəyə çevrilmişdi. Bunu ABŞ Dövlət Departamentinin yeni müstəqil dövlətlərə yardım üzrə koordinatorunun müavini C.Xerbstin 1996-cı ildə Konqresdəki çıxışı zamanı verildiyi məlumatlar da təsdiq edir: müstəqilliklərini elan etmələrindən sonra Ermənistana 612 milyon, Gürcüstana 420 milyon, Azərbaycana isə cəmi 80 milyon dollar yardım edilmişdi [10, s.382]. Burada İ.Musa çox maraqlı bir müqayisə aparır: həmin vaxt "adambaşına düşən ABŞ yardımına görə Ermənistan postsovet məkanında birinci, dünyada isə İsraildən sonra ikinci yeri tuturdu" [25, s.513]. Halbuki, Cənubi Qafqazın hər üç yeni müstəqil respublikası arasında hərbi təcavüzə məruz qalan, yüz minlərlə vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşən məhz Azərbaycan idi.

"Vilson düzəlişi" və "Porter əlavəsi"nin Azərbaycan-ABŞ münasibətlərinə təsiri Vətən tarixşünaslığında. ABŞ tərəfindən ən azı digər Cənubi Qafqaz respublikalarına edilən yardım qədər Azərbaycana da humanitar yardım göstərilməsini təmin etmək uğrunda Azərbaycan diplomatiyasının səyləri nəhayət ki, 1996-cı ilin əvvəlində öz bəhrəsini verdi. Belə ki, həmin ilin 25-26 yanvarında konqresmen Çarlz Vilsonun təklifi ilə Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsi Nümayəndələr palatasında, daha sonra isə Senatda qəbul edildi və ABŞ Prezidenti B.Klinton tərəfindən təsdiq olundu. Z.Əliyev göstərir ki, konqresmen Ç.Vilsonun bu təşəbbüsü "Azadlıq müdafiə aktı"nın 907-ci maddəsinə edilmiş əlavə idi [9, s.124]. Bu mənada, sözügedən qanun layihəsi Vətən tarixşünaslığında bəzən "Vilson düzəlişi" kimi də qeyd olunur. "Vilson düzəlişi"

əvvəllər olduğu kimi ABŞ-ın Azərbaycana yalnız QHT xətti və şəxsi xeyriyyəçi təşkilatlar vasitəsilə humanitar yardım göstərilməsinin mümkünlüyünü təsbit etsə də, burada mühüm bir fərqli məqam var idi. Həmin məqam E.Nəsirovun yazdığı kimi belə idi: "Azərbaycan hökumətinə yardım o halda göstərilə bilər ki, Prezident müəyyən etsin ki, QHT vasitəsilə Azərbaycana göstərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir" [28, s.46]. Göründüyü kimi, burada artıq Amerika QHT-ləri ilə yanaşı ABŞ-ın dövlət yardımından söhbət gedir. Bütövlükdə, sözügedən qanunun qəbul edilməsini Azərbaycan diplomatiyasının erməni lobbisi üzərində qələbəsi kimi qiymətləndirmək olar. Çünki, Ə.Həsənovun yazdığı kimi: "Konqresin 1995-ci ilin mayında qəbul edə bilmədiyi "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" qanun layihəsi məhz bu dəfə bəyənildi və erməni lobbisinin ciddi müqavimətinə baxmayaraq təsdiq edildi" [13, s.161]. Lakin, ABŞ-dakı erməni lobbisi və diasporu anti-Azərbaycan fəaliyyətlərini dayandırmır, israrla ABŞ-ın Azərbaycanla münasibətlərinə ziyan vurmağa çalışırdılar. Erməni lobbisi və diasporunun növbəti kəskin təzyiqləri nəticəsində 1996-cı ilin iyununda konqresmen Con Porterin təklifi ilə Nümayəndələr palatasında ikitərəfli münasibətlərin inkişafına zərbə endirən "Porter əlavəsi" adlı yeni sənəd qəbul edildi [13, s.162]. Ayrı-ayrılıqda həm Azərbaycanın, həm də "Dağlıq Qarabağ"ın qaçqın və məcburi köçün vəziyyətinə düşmüş əhalisinə 7:1 nisbətində yardım edilməsini nəzərdə tutan həmin sənəd M.Qasımlının təbirincə desək, Azərbaycanın maraqlarına uyğun deyildi və onun müstəqilliyinə, suverenliyinə qarşı yönəlmişdi [19, s.177-178; 20, s.62]. Z.Əliyev göstərir ki, aşağıdakı iki cəhətinə görə "Porter əlavəsi"nin dövlətçiliyimiz əleyhinə yönəlməsi qənaətinə gəlmək olar:

1. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi deyil, müstəqil subyekt kimi təqdim edilirdi.
2. İki müxtəlif subyektə müxtəlif yardımlar təklif olunmaqla göstərilən yardım arasında nisbət qoyulurdu [9, s.128].

Bu baxımdan, "Porter əlavəsi" məsələyə ədalətsiz yanaşma idi və münaqişənin həllinə kömək etmirdi. Elə buna görədir ki, sözügedən sənəd nəinki Azərbaycan tərəfində narazılıq doğurdu, həmçinin ABŞ-ın özündə də birmənalı qarşılanmadı. ABŞ Dövlət Departamenti 1996-cı ilin iyunun 12-də "Porter əlavəsi" ilə bağlı xüsusi bəyanat verərək qanun layihəsində göstərilən müddəaları "hazırda edilən səylərə qarşı maneə yaratmaq" cəhdi kimi qiymətləndirdi. Bəyənatda qeyd edilirdi ki, ABŞ tərəfindən Azərbaycanın 780 min nəfərədək qaçqın və məcburi köçkün statuslu vətəndaşına humanitar yardımların göstərilməsi səyləri davam etdiriləcəkdir [28, s.48-49]. İyunun 13-də Prezident H.Əliyev ABŞ-ın Azərbaycandakı səfiri ilə görüşərək ona açıq şəkildə bildirdi: "Porter düzəlişi Azərbaycana kömək əvəzinə ona zərbə vurur, onun ərazi bütövlüyünü təhlükə altına qoyur" [7, s.440-441]. Həm ABŞ Dövlət Departamentinin, həm də Azərbaycan tərəfinin "Porter əlavəsi"nə qarşı yönələn obyektiv mövqeyi nəinki ABŞ-dakı erməni diasporu və lobbisinin, həm də Ermənistanın hiddətinə səbəb oldu. İyunun 15-də Ermənistan XİN bəyanat verərək ABŞ hökumətinin Porter düzəlişi ilə bağlı mövqeyinə etirazını bildirdi. Porter düzəlişi ətrafında qızğın diplomatik mübarizə getdiyini qeyd edən M.Qasımlı yazır ki, Ermənistanın sözügedən hərəkəti cavabsız qalmadı və Azərbaycan Respublikası XİN iyunun 18-də bəyanat verməklə Ermənistan XİN-nin bəyanatına kəskin etirazını bildirdi, onu Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirdi [19, s.179]. Son nəticədə ABŞ obyektiv mövqe tutaraq erməni lobbisi və diasporunun əsassız iddialarını rədd etdi və ABŞ senatında xarici dövlətlərə yardım haqqında qanun layihəsi "Porter düzəlişi" nəzərə alınmadan 1996-cı il iyulun 26-da qəbul edildi.

ABŞ Dövlət Departamenti 1996-cı ilin oktyabrında Dağlıq Qarabağ regionunda qondarma "prezident" seçkiləri keçiriləndə də xüsusi bəyanat verərək öz narahatlığını bildirməklə, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədi. Bu bəyanat Ə.Həsənovun yazdığı kimi: ermənilərin güclü təsirinə baxmayaraq, ABŞ-ın Azərbaycana münasibətdə obyektiv və beynəlxalq hüquq normalarına tam uyğun olan bir mövqedə dayandığını bir daha sübut etdi [13, s.163]. Həmin mövqe ATƏT-in Lissabon sammiti ərəfəsində – 1996-cı ilin noyabrın 6-da ABŞ Prezidenti B.Klintonun Azərbaycan Prezidenti H.Əliyevə göndərdiyi məktubda Azərbaycanın ərazi bütövlüyü və münaqişənin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinin ABŞ tərəfindən dəstəkləməsinin bildirilməsi ilə növbəti dəfə sərgiləndi [11, s.38]. Həmçinin, dekabrın 2-3-də keçirilən Lissabon sammiti çərçivəsində də Azərbaycan Prezidenti H.Əliyev ilə ABŞ-ın vitse-prezidenti A.Qor və dövlət katibi

U.Kristofer arasında görüşlər baş tutdu ki, burada da ABŞ tərəfindən birmənalı şəkildə Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin dəstəklənməsi bildirildi [19, s.183]. Ümumiyyətlə, Lissabon sammitində Prezident H.Əliyev başda olmaqla Azərbaycan diplomatiyasının gördüyü işlər Ə.Həsənov və Ş.Şahməmmədovun "Lissabon sammiti-96" adlı kitabında xüsusi olaraq tədqiq olunmuşdur ki, bunu da Vətən tarixşünaslığına böyük töhfə hesab etmək olar [15].

Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri və Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlığa doğru inkişafı Vətən tarixşünaslığında. 1997-ci ilin 27 iyulundan – 5 avqustunadək Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a ilk dəfə olaraq rəsmi səfər etməsi iki ölkə arasındakı münasibətlərdə çox mühüm tarixi hadisə oldu. 1997-ci ildə B.Bler və J.Qəribovanın redaktorluğu ilə nəşr edilmiş "Qlobal üfüqlər" adlı kitabı sırf Prezident H.Əliyevin ABŞ-a ilk rəsmi səfərinə həsr olunması baxımından Vətən tarixşünaslığına dəyərli töhfə hesab etmək olar [21]. Vətən tarixşünaslığında sözügedən hadisə Azərbaycan-ABŞ münasibətlərinin zirvəsi, yeni mərhələnin başlanğıcı və dönüş anı kimi xarakterizə olunur. Məsələn, Ə.Həsənov həmin hadisənin tarixi əhəmiyyəti ilə əlaqədar yazır: "Bu səfər özünün bütün əlamət və cəhətlərinə görə tarixi əhəmiyyət kəsb etmiş və Azərbaycan-ABŞ münasibətləri tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur" [13, s.171]. H.Paşayev bu səfəri ABŞ-Azərbaycan münasibətlərini yeni strateji səviyyəyə qaldırmağa kömək edən hadisə kimi qiymətləndirir [29, s.125]. Sözügedən hadisəni iki ölkə arasındakı münasibətlərdə dönüş anı kimi xarakterizə edən M.Qasımlı isə səfərin məqsədi ilə bağlı qeyd edir: "Azərbaycan Prezidentinin səfərində başlıca məqsəd iki ölkə arasında əlaqələri nizama salmaq, münasibətlərin bütün sahələrdə inkişafını daha möhkəm təməllər üzərində inkişaf etdirmək, müqavilə-hüquq bazasını möhkəmləndirmək, 907-ci maddənin ləğvinə dair məsələləri müzakirə etmək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində ABŞ-ın fəaliyyətinin gücləndirilməsinə nail olmaq və s. idi" [19, s.190].

Azərbaycan Prezidentinin Birləşmiş Ştatlara ilk rəsmi səfərinin ən mühüm əhəmiyyəti ondan ibarət oldu ki, rəsmi Vaşinqton, daha dəqiq desək ABŞ dövlət katibinin müavinləri S.Ayzenştadt və S.Talbott 907-ci maddənin aradan qaldırılması məsələsinə münasibət bildirərkən həmin maddənin ikitərəfli münasibətlərə xələl gətirməsi və bu baxımdan nəinki Azərbaycanın, eləcə də ABŞ-ın mənafeyinə zidd olmasını qeyd edərək Klinton hökumətinin sözügedən maddəni ləğv etməyə hazır olduğunu bəyan etdilər. Həmçinin, konqresmen P.Kinq 907-ci maddənin aradan qaldırılması ilə bağlı qanun layihəsi hazırlayıb Konqresə təqdim edərkən açıq şəkildə bəyan etdi: "Bizim Qafqazda hazırkı siyasətimiz ABŞ-ın milli maraqlarına düzgün xidmət etmir. Birləşmiş Ştatlar Dağlıq Qarabağ probleminin həllinə daha ədalətlə yanaşmalıdır" [13, s.172-173]. Rəsmi səfər zamanı ABŞ hökumətinin Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəql edilməsinə dair mövqeyini bəyan edərkən A.Yaqubovanın qeyd etdiyi kimi, müxtəlif yolları (Bakı-Ceyhan boru kəməri, Transxəzər neft boru kəməri, Transxəzər qaz kəməri) müdafiə etməsi iqtisadi fayda baxımdan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi [34, s.77]. M.Qasımlı səfərin nəticəsini təhlil edərkən: "Səfər ABŞ-ın Azərbaycan siyasətindəki dəyişikliyin zirvə nöqtəsi oldu. Məhz bu səfərdən sonra, Prezident Heydər Əliyevin ABŞ-ı Azərbaycan ilə əməkdaşlığın faydalı və zəruri olduğuna inandırması nəticəsində Birləşmiş Ştatlar Cənubi Qafqaz siyasətini dəyişdirdi, Azərbaycanı öz geosiyasi maraqları zonasına daxil etdi" – qənaətinə gəlir [19, s.204]. Bunu görkəmli amerikalı politoloq Z.Bjezinskinin 1997-ci ildə nəşr olunmuş "Böyük şahmat taxtası" adlı əsərində: "Ukrayna, Azərbaycan, Cənubi Koreya, Türkiyə və İran kritik dərəcədə mühüm geosiyasi mərkəz rolunu oynayırlar" – deyə yazması da təsdiq edir [4, s.40]. Bütün bu və ya digər faktlar aşkar surətdə sübut edir ki, Vətən tarixşünaslığında sözügedən hadisənin tədqiqatçılar tərəfindən Azərbaycanın ABŞ ilə münasibətlərinin zirvəsi, dönüş anı kimi səciyyələndirilməsi heç də təsadüfi deyildir.

ABŞ-a rəsmi səfərindən sonra Prezident H.Əliyev 1997-ci il sentyabrın 2-də "Azərbaycan Respublikası ilə ABŞ arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzaladı və iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair proqram təsdiq edildi [8, s.143]. Bununla belə, Azərbaycanın ABŞ ilə əlaqələrinin yüksələn tempdə inkişafında maraqlı olmayan qüvvələr öz bədnam fəaliyyətlərindən nəinki əl çəkir, əksinə daha da gücləndirərək 907-ci maddənin qüvvədə saxlanılmasına çalışırdılar. M.Qasımlının vurğuladığı kimi: "Lakin, qarşılıqlı münasibətlərin inkişafı problemlərsiz də deyildi. Azərbaycan-ABŞ münasibətlərini pozmağa çalışan qüvvələr fəaliyyətlərini heç cür dayandırmırdılar" [19, s.207]. İ.Musa isə, bununla bağlı

yazır: "Bütün açıqlamalar, tədbirlər və s. qadağaların yumşaldılmasına müəyyən təsir göstərsə də yetərli olmadı. Konqresin 1998-ci ilə dair xarici əməliyyatlar haqqında qanununa əsasən Gürcüstana 92,5 milyon, Ermənistana 87,5 milyon dollar ayrıldı. Azərbaycana isə üç qurum vasitəsilə yardım göstərilməsinə icazə verildi" [25, s.516]. İ.Musa həmçinin göstərir ki, Ermənistana edilən yardımda iki il əvvələ nisbətən xeyli azalma var idi. Bundan başqa, 1997-ci ilin noyabrında ABŞ Dövlət Departamenti Birləşmiş Ştatların Xəzər regionu siyasətini bəyan edərkən regional münaqişlərin həlli, dünyanın enerji təminatının genişlənməsi üçün Xəzər hövzəsinin enerji ehtiyatlarının istismara cəlb edilməsi, o cümlədən Xəzər hövzəsi ölkələrinin müstəqillik və suverenliyinin bu siyasətin əsas istiqamətləri kimi göstərildi [27, s.165]. 1998-ci il yanvarın 28-də isə, ABŞ-dan Bakıya dövlət səviyyəsində 2 milyon dollar həcmində humanitar yardım göndərildi [19, s.208]. Bütün bunlar ABŞ-ın xarici siyasətində, habelə geosiyasi və iqtisadi maraqlarında Azərbaycanın nə qədər böyük önəm kəsb etməsinin göstəricisi idi. Bütövlükdə B.Klinton hökuməti dövründə M.Baxışovun yazdığı kimi: "Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi vəziyyəti, Ermənistan-Azərbaycan münaqişəsi ABŞ-ın diqqət mərkəzində olmuşdur" [2, s.40].

Nəticə. Beləliklə, SSRİ-nin dağılmasından sonra öz müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın dünyanın ən mühüm fövqəldövləti olan ABŞ ilə münasibətləri 1993-cü ilin ikinci yarısından – ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə böyük qayıdışından sonra son dərəcə taleyüklü bir mərhələyə qədəm qoymuş və bu mərhələdə iki ölkə arasındakı münasibətlərdə anlaşılmaz münasibətlərdən – strateji tərəfdaşlığa istiqamətlənən böyük dönüş nöqtəsi yaranmışdır. Həmin dönəmdə Azərbaycan-ABŞ münasibətləri yüksəliş tendensiyası ilə inkişaf etməyə başlamışdır ki, bu tendensiya Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələrdə və s. geniş şəkildə öz əksini tapmış, mühüm tədqiqat obyekti olmuşdur. Həmin tarixşünaslıq materiallarının müqayisəli təhlili problemi dərindən tədqiq etmək üçün qarşımızda əlverişli imkanlar açır.

ƏDƏBİYYAT

1. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011, 584 s.
2. Baxışov M. Avropa və Amerika ölkələrinin müasir tarixi (İkinci dünya müharibəsindən sonrakı dövr). Bakı, "3 saylı Bakı Mətbəəsi", 2018, 334 s.
3. Bjezinski Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı. Bakı, "Oğuz eli", 2009, 267 s.
4. Brzezinski Z. The Grand Chessboard. American primacy and its geostrategic imperatives. New York, "Basic books", 1997, 223 p.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, "Azərnəşr", 1997, 612 s.
6. Əliyev H. Müstəqilliyimiz əbədidir. III kitab. Bakı, "Azərnəşr", 1997, 488 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir. VI kitab. Bakı, "Azərnəşr", 1998, 512 s.
8. Əliyev H. Müstəqilliyimiz əbədidir. XII kitab. Bakı, "Azərnəşr", 2004, 432 s.
9. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı, "Nurlan", 2001, 150 s.
10. Heydərova X. ABŞ-Azərbaycan münasibətlərinə soyuqluq gətirən amillər. Tarix və onun problemləri, №2, 2013, s.381-386.
11. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, "İşıq", 1997, 80 s.
12. Həsənov Ə. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997). Bakı, "Azərbaycan Universiteti", 1997, 101 s.
13. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, 315 s.
14. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan", 2005, 631 s.
15. Həsənov Ə., Şahməmmədov Ş. Lissabon sammiti-96. Bakı, "Azərnəşr", 1997, 312 s.
16. Hüseynov Y. Ümummilli lider Heydər Əliyevin gələcəyə istiqamətlənmiş siyasi doktorinası. Akademik Tarih ve Düşünce Dergisi, 10 (1), 2023, s.356-362.
17. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.

18. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyaseti kontekstində. Bakı, "Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı", 2001, 152 s.
19. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, 640 s.
20. Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim", 1997, 124 s.
21. Qlobal üfüqlər: Prezident Heydər Əliyevin ABŞ səfəri. Bakı, 1997, 68 s.
22. Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. Bakı, "Çaşıoğlu", 2012, 464 s.
23. Məmmədov Ş. Azərbaycan-ABŞ münasibətləri: humanitar və iqtisadi əlaqələr. Geostrategiya, 2017, № 03, s.59-61.
24. Мир-Бабаев М. Краткая история Азербайджанской нефти. Баук, «Азернешр», 2009, 376 с.
25. Musa İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Bakı Universiteti", 2011, 776 s.
26. Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi (1918-2007-ci illər). Bakı, "ADPU-nun nəşriyyatı", 2009, 349 s.
27. Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı, "Xəzər Universiteti", 2000, 192 s.
28. Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, "Qanun", 1998, 136 s.
29. Pashayev H. Azerbaijan-US relations: from unjust sanctions to strategic partnership. Azerbaijan in global politics: crafting foreign policy. Baku, "Azerbaijan Diplomatic Academy", 2009, pp.109-129.
30. Paşayev H. Yüksəkliyə doğru. Bakı, "Azərbaycan Marketinq Cəmiyyəti", 2008, 336 s.
31. Rzayev M. Heydər Əliyevin xarici siyasəti və Azərbaycanın beynəlxalq uğurları. Akademik Tarih ve Düşünce Dergisi, 10 (1), 2023, s.260-269.
32. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə, Bakı, "XUN", 2000, 372 s.
33. Шукуров И. Будапештский саммит. Баку, «Азернешр», 1995, 28 с.
34. Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, "Azərnəşr", 2004, 162 s.

БАЛАМИРЗА МАМЕДЛИ
Докторант Бакинского Государственного Университета

АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ (1993-1997 ГГ.): ОТ НЕПОНЯТНЫХ ОТНОШЕНИЙ К СТРАТЕГИЧЕСКОМУ ПАРТНЁРСТВУ В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

Отношения Азербайджана с Соединенными Штатами Америки которые являются единственной сверхдержавой и огромным центром силы в мире вступили в новый и чрезвычайно важный этап после возвращения общенационального лидера Гейдара Алиева к политической власти в Азербайджане в конце XX века. После этого важного исторического события произошел великий перелом не только в отношениях с США, но и во всей внешней политике Азербайджанской Республики. Если в 1993 году – год прихода Гейдара Алиева к политической власти, отношения между Азербайджаном и США были более непонятными, то после этого года двусторонние отношения постепенно стали развиваться в положительной тенденции, и всего за 4 года отношения между двумя странами поднялись на уровень стратегического партнерства. Данный период азербайджано-американских отношений (1993-1997 гг.) нашел широкое отражение в трудах различных исследователей отечественной историографии. В статье на основе сравнительного анализа исследований по указанной проблеме в азербайджанской историографии рассматриваются четыре года азербайджано-американских отношений.

Ключевые слова: Азербайджанская Республика, США, Гейдар Алиев, внешняя политика, отечественная историография.

BALAMIRZA MAMMADLI
PhD student at Baku State University

AZERBAIJAN-US RELATIONS (1993-1997): FROM INCOMPREHENSIBLE RELATIONS TO STRATEGIC PARTNERSHIP IN DOMESTIC HISTORIOGRAPHY

The relations of Azerbaijan with the United States which is the only superpower and a huge power center in the world, entered a new and extremely important stage after the return of national leader Heydar Aliyev to political power in Azerbaijan at the end of the 20th century. After this important historical event, a great turning point occurred not only in relations with the United States, but also in the entire foreign policy of the Republic of Azerbaijan. If in 1993, the year Heydar Aliyev came to political power, relations between Azerbaijan and the United States were more unclear, then after this year bilateral relations gradually began to develop in a positive trend, and in just 4 years relations between the two countries rose to the level of strategic partnership. This period of Azerbaijani-American relations (1993-1997) was widely reflected in the works of various researchers of domestic historiography. The article examines four years of Azerbaijan-US relations based on the comparative analysis of research works on the mentioned problem in Azerbaijani historiography.

Keywords: Azerbaijan Republic, USA, Heydar Aliyev, foreign policy, domestic historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: s.e.d. Elman Nəsirov, t.e.d. Anar İsgəndərov.